MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

QEYRİ-MADDİ MƏDƏNİ İRS

TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz Xəlilli

BAKI – 2026

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qeyri Hökumət Təşkilatları üçün elan etdiyi 2025-ci il Qrant müsabiqəsi çərçivəsində nəşr olunmuşdur.

Xəlilli, Fariz. (Hazırlayan). (2026). Qeyri-maddi mədəni irs: Tədris vəsaiti.
Bakı: *"AFPoliqrAF"*, 2026.– 300 səh.

10 mart – 24 aprel 2026-cı il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi qeyri-maddi mədəni irs ustad dərslərinə başlamışdır. Dərslər YUNESKO-nun Qeyri-maddi mədəni irs ilkin siyahısında olan Azərbaycanın 24 qeyri-maddi mədəni irsi mövzularında olub, Azərbaycan irs mütəxəssisləri tərəfindən aparılmışdır. Mühazirələr əsasında tədris vəsaiti nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Şikar Qasımov
Rəyçi: Prof.Dr. Kübra Əliyeva

Koordinator: Məleykə Hüseynova
Fotolar: Fariz Xəlilli, Məleykə Hüseynova, Nərmin İmanova, Süleyman Süleymanov

ISBN: 978-9952-598-51-3

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2026

MÜNDƏRİCAT

ÖN SÖZ 6

QEYRİ-MADDİ MƏDƏNİ İRS ANLAYIŞI – MƏDƏNİYYƏTİMİZİN DÜNYADA DANIŞAN DİLİ
Şikar Qasımov 7

AZƏRBAYCANIN İRS NÜMUNƏLƏRİ YUNESKO-NUN
QEYRİ-MADDİ MƏDƏNİ İRS SİYAHISINDA
Məleykə Hüseynova 15

AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİ VƏ ONUN İNKİŞAF MƏRHƏLƏLƏRİ
Şikar Qasımov 20

MUĞAMIN TARİXİ VƏ MİLLİ KİMLİKDƏ ROLU (ARXEOLOJİ MATERİALLAR ƏSASINDA)
Kübra Əliyeva 30

MUSİQİNİN FƏLSƏFİ DƏYƏRİ
Elmira Abasova 39

TAR ALƏTİNİN YARANMA TARİXİ, FORMALAŞMASI VƏ İFAÇILIQ SƏNƏTİ
Səxavət Məmmədov 50

KAMANÇA ALƏTİNİN YARANMA TARİXİ, İNKİŞAF MƏRHƏLƏLƏRİ VƏ
İFAÇILIQ XÜSUSİYYƏTLƏRİ
Toğrul Əsədullayev 54

"DƏDƏ QORQUD" DASTANI İSLAMİ QAYNAQ KİMİ
Aybəniz Rəhimova 58

POSTMODERN AZƏRBAYCAN ROMANINDA "DƏDƏ QORQUD" DASTANI VƏ
TƏHRİF EDİLMİŞ TARİX
Şəmil Sadıqov 63

AŞIQ, XANƏNDƏLİK VƏ MUĞAM SƏNƏTİNİN AZƏRBAYCAN XALQ YARADICILIĞININ
TƏBLİĞİNDƏ ROLU
Şikar Qasımov 69

OZAN-AŞIQ SƏNƏTİNİN TARİXİ-MƏDƏNİ SƏCİYYƏSİ
Hafiz Kərimov 80

AZƏRBAYCANIN AŞIQ SƏNƏTİ VƏ QADIN AŞIQLARI ƏZİZƏ CƏFƏRZADƏ
YARADICILIĞINDA
Fərqanə Zülfiqarova 87

ŞİFAHİ YUMOR VƏ SÖZ MƏDƏNİYYƏTİ: LƏTİFƏLƏRİN MAARİFLƏNDİRİCİ VƏ
SATİRİK FUNKSİYASI
Lətafət Əliyeva 91

AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİ VƏ ONUN İNKİŞAF MƏRHƏLƏLƏRİ

Şikar Qasımov
Tarix elmləri doktoru, professor
Bakı Mühəndislik Universiteti
https://doi.org/10.30546/19023.2026.1001.211

Giriş. Azərbaycanın qeyri-maddi mədəni inkişafını izlədikcə aydın olur ki, xalqımızın mədəni həyatında əsas rol oynayan sahələrdən biri də musiqi olmuşdur. Azərbaycan musiqi mədəniyyətinin çox qədim tarixi vardır. Azərbaycançılıq ideyası əsasında qədim dövrlərdən başlayaraq orta əsrlər, yeni dövr, eləcə də XIX–XXI əsrlərdə milli musiqi mədəniyyətinin müxtəlif formalarında təbliğ olunmuş və öz təzahürünü tapmışdır. Orta əsrlər Azərbaycan musiqi mədəniyyətinin bir çox cəhətləri Nizami Gəncəvi, Məhsəti Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli və digər klassiklərin əsərlərində geniş şəkildə öz əksini tapmışdır. Musiqi mədəniyyəti haqqında orta əsrlərin görkəmli alimlərindən Səfiəddin Urməvi, Əbdülqadir Marağayi, Nurəddin Marağayi və başqalarının musiqi traktatlarında verilmiş zəngin məlumatlar musiqi elminə böyük töhfədir [14; 15].

Milli musiqi mədəniyyətinin dövrləşdirilməsi ilə bağlı qeyd etmək olar ki, Azərbaycan musiqisinin inkişaf tarixində uzun müddət mövcud olmuş bölgü əsasən rus-sovet metodoloji yanaşmalarına əsaslanmışdır. Fikrimizcə, bu dövrləşməyə müəyyən düzəlişlər edərək, məsələyə daha fərqli və obyektiv mövqedən yanaşmaq mümkündür. Belə ki, Azərbaycan musiqişünaslığında uzun müddət qəbul edilmiş musiqinin inqilaba qədərki və inqilabdan sonrakı dövrlərə bölünməsi, eləcə də siyasi proseslərlə bağlı sovet yönümlü təsnifat bu gün artıq süni xarakter daşıyır. Əslində Azərbaycan xalqının incəsənətinin tarixi kökləri çox qədim dövrlərə gedib çıxır. Xalqın tarixi inkişafı, azadlıq və mədəniyyət uğrunda mübarizəsi çoxəsrlik ənənələr üzərində formalaşmışdır. Eyni zamanda, professional incəsənətin təşəkkülü baxımından mühüm yeniliklərlə səciyyələnən yeni və ən yeni dövr - XIX əsrin sonu, XX əsrin əvvəlləri və XX əsrdən XXI əsrin əvvəllərinədək olan mərhələ xüsusi əhəmiyyət kəsb edir. Bu dövrlər Azərbaycan musiqi mədəniyyətinin inkişafında mühüm rol oynamaqla yanaşı, cəmiyyətin iqtisadi, ictimai-siyasi və mənəvi həyatında baş verən dərin və fundamental dəyişikliklərlə səciyyələnir.

Bakının tədricən dünya miqyaslı sənaye mərkəzlərindən birinə çevrilməsi milli mədəniyyət və incəsənətin inkişafını da şərtləndirmişdir. Dünya ictimaiyyətinin mütərəqqi ideyaları həmin dövrün Azərbaycan ziyalılarına ciddi təsir göstərmişdir. Mirzə Fətəli Axundzadədən sonra Azərbaycanın bədii və mədəni həyatında maarifçi alim və pedaqoq Həsən bəy Zərdabi, dramaturqlardan Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, Mirzə Ələkbər Sabir, Mirzə Şəfi Vazeh, həmçinin demokratik fikrin görkəmli nümayəndələrindən Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Cəlil Məmmədquluzadə, Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov kimi görkəmli şəxsiyyətlər mühüm rol oynamışlar. Ümumən Azərbaycan tarixində olduğu kimi, milli ideyaların formalaşmasında və milli musiqi mədəniyyətinin inkişafında XIX əsr xüsusi yer tutur. Sənətşünas Ə. İsazadənin qeyd etdiyi kimi, Azərbaycan xalq melodiyalarının ilk not fiksasiyası məhz bu dövrdən başlanır. Musiqi haqqında elmi əsərlərin yazılması da həmin mərhələyə təsadüf edir. Bu proses eyni zamanda Zaqafqaziya xalqları ilə Rusiya arasında mədəni əlaqələrin genişlənməsi fonunda inkişaf etmişdir [10, s. 5]. Belə ki, Azərbaycan xalq musiqisinin notlaşdırılmış ilk nümunələrinə "Asiya musiqi jurnalı", "Fars xalq poeziyası nümunələri" kitabı, "Kafkaz" qəzeti, "İllüstrasiya" jurnalı və "Qafqaz xalqlarını və ərazisini təsvir edən materiallar" kimi nəşrlərdə rast gəlinir.

Görkəmli Azərbaycan maarifçisi Həsən bəy Zərdabi tərəfindən nəşr edilmiş "Türk nəğmələri"

məcmuəsi xüsusi maraq doğurur. Azərbaycan xalqının qabaqcıl mədəniyyətə qovuşmasında mahnının tərbiyəvi roluna dair bir sıra qəzet məqalələri də ona məxsusdur. "Bizim nəğmələrimiz" məqaləsində o yazır: "Bizim Qafqaz müsəlmanlarına heç bir yazı və dil ilə deyilən söz o qədər əsər etməz, necə ki, şeir ilə deyilən söz, ələlxüsus nəğmələr, xoş səvt ilə oxunur" [15]. Göründüyü kimi, həmin məcmuələrdə Azərbaycan musiqi mədəniyyətinin inkişafında XIX əsr yeni mərhələ kimi səciyyələndirilir. Öz inkişaf tarixində Azərbaycan musiqi mədəniyyəti artıq 1873-cü ildən etibarən yeni mərhələyə qədəm qoyur. Məhz bu ildə ilk dram teatrının açılması milli musiqi teatrının, xüsusilə operanın yaranması üçün mühüm zəmin yaratmışdır. Dramatik tamaşalarda musiqinin oynadığı rol da bunu təsdiq edir. Bu dövrdə ifaçılıq mədəniyyəti də xüsusi əhəmiyyət kəsb edirdi. Həmin illərdə Bakıya görkəmli ifaçılar - Fyodor Şalyapin, Leonid Sobinov, eləcə də bəstəkar Sergey Raxmaninov qastrol səfərlərinə gəlmişlər [15].

XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda simfonik musiqi mədəniyyətinin formalaşması prosesi başlanmışdır. Bakıda simfonik ifaçılıq yalnız maarifçilik fəaliyyəti deyil, eyni zamanda milli musiqi mədəniyyətinin inkişafının mühüm istiqamətlərindən biri idi. Azərbaycanda peşəkar musiqi yaradıcılığının təşəkkülündə, Bakının musiqi həyatının zənginləşməsində həmin dövrdə təşkil olunan Şərq və kamera konsertlərinin böyük rolu olmuşdur.

1908-ci il yanvarın 25-də Tağıyev teatrının səhnəsində ilk milli opera - "Leyli və Məcnun" tamaşaya qoyulmuşdur. Bu tarix milli operanın, eləcə də bəstəkar yaradıcılığının başlanğıcı kimi qəbul edilir. "Leyli və Məcnun" operası ilə Üzeyir Hacıbəyli nəinki Azərbaycanda, həm də bütün müsəlman Şərqində opera sənətinin əsasını qoymuşdur [14]. Operanın dərin təhlili və ona yeni tarixi mövqelərdən yanaşma Azərbaycan musiqi mədəniyyətinin mövcud dövrləşdirilməsinə yenidən baxmaq imkanı yaradır. XX əsrin əvvəllərində Üzeyir Hacıbəyli tərəfindən formalaşdırılan opera ənənəsi 1920-ci ilə qədərki dövr üçün bir hazırlıq mərhələsi kimi dəyərləndirilə bilər. Bu mərhələ Azərbaycan musiqi mədəniyyəti tarixində mühüm yer tutur. Həmin dövr musiqi inkişafında baş verən yeniliklərlə - ilk musiqi təhsili ocaqlarının yaranması, folklorşünaslığın təşəkkülü və ictimai-siyasi fəallığın artması ilə xarakterizə olunur. Eyni zamanda, XX əsrin əvvəlləri Azərbaycan musiqisində yeni janr formalarının mənimsənilməsi və ifaçılıq sənətinin intensiv inkişafı ilə səciyyələnən mühüm bir mərhələ kimi çıxış edir.

Əlimizdə olan mənbələrdən məlum olur ki, 1920-30-cu illərdə Bakı keçmiş ittifaqın konsert həyatında zənginliyi və rəngarəngliyi ilə seçilirdi. Bu dövrdə milli musiqi sahəsində ifaçılıq genişlənmiş, dinləyicilər arasında klassik musiqinin mürəkkəb sahələrini anlamağa maraq artmışdır. Eyni zamanda, maarifçilik xarakterli musiqi fəaliyyəti də özünəməxsus formalarla inkişaf etmişdir. Konsert-mitinqlər, təbliğat konsertləri, fəhlə və əsgər auditoriyasında təşkil olunan çıxışlar bu prosesin əsas tərkib hissəsini təşkil edirdi. Beləliklə, XX əsrin 20-ci illəri Azərbaycan mədəniyyəti tarixində obyektiv səbəblərlə yeni bir mərhələ kimi səciyyələndirilir.

XX əsrin əvvəllərində azərbaycançılıq ideyalarının və xalqın milli birliyinin formalaşmasında mühüm rol oynayan milli maraqlar meydana çıxmışdı. Dram teatrının 1883-cü ildə yaranması, 1906-cı ildə Molla Nəsrəddin jurnalının nəşrə başlaması və 1908-ci ildə milli operanın yaranması bu prosesin mühüm mərhələlərini təşkil edirdi. Bütün bu hadisələr 1920-ci illərdən etibarən Azərbaycan musiqi mədəniyyətinin inkişafı üçün əsas zəmin yaratmışdır.

Üzeyir Hacıbəylinin 1917-ci ilin sonlarında sözlərini və musiqisini yazdığı, həmin ilin 23 dekabrında Hacı Zeynalabdin Tağıyev Teatrında onun məşhur "O olmasın, bu olsun" əsərinin tamaşasından əvvəl orkestr tərəfindən ifa edilən "Milli marş" sonralar elmi ədəbiyyatda "Azərbaycan milli marşı" kimi tanınmışdır.

Bu iki əsərin Türkiyədə məşhur olması haqqında professor Misir Mərdanov və Əsgər Quliyev

yazırlar: “Fikrimizcə, Üzeyir Hacıbəylinin yaratdığı hər iki marş, görünür, ilk olaraq tanınmış türk bəstəkarı Osman Zeki Üngörün əlinə düşmüş, uzun illər onun şəxsi arxivində qorunub saxlanmış, nəhayət, onun yaxın qohumu (deyilənə görə) Etem Üngör tərəfindən dahi bəstəkarın ölümündən (1948) xeyli sonra, 1966-cı ildə Ankarada çap edilmişdir [10, s. 5]. Bununla da Azərbaycan musiqi mədəniyyətinin iki nadir incisi, böyük bəstəkarın iki tarixi əsəri uzun ayrılıqdan sonra yenidən xalqımıza qaytarılmışdır.

Maraqlıdır ki, Cümhuriyyət illərində Üzeyir bəy Türkiyədə də görkəmli musiqişünas kimi tanınırdı. Onun Əhməd Cavadın Birinci Dünya müharibəsi illərində yazdığı “Çırpınırdı Qara dəniz, baxıb Türkün bayrağına!” misraları ilə başlayan məşhur şeirinə 1918-ci ildə bəstələdiyi mahnı həm o dövrdə, həm də bu gün Türkiyədə geniş yayılmış və dillər əzbəri olmuşdur.

Xalqımız bədii yaradıcılığın müxtəlif sahələrində, xüsusilə musiqi sahəsində dəyərli nümunələrin yaradıcısı olmuşdur. Azərbaycanın zəngin musiqi sənəti xalqın xarakterinin, taleyinin və estetik düşüncəsinin dərk olunması üçün geniş imkanlar açır. Azərbaycan musiqi incəsənətinin öyrənilməsi həm də xalqın tarixinin və ümumilikdə mənəvi mədəniyyət tarixinin araşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan qədim və son dərəcə zəngin folklor ənənələrinə malik ölkədir. Müxtəlif musiqi alətlərinin müşayiəti ilə ifa olunan rəngarəng mahnı və rəqslər xalqın bədii istedadını əks etdirir. Öz gözəlliyi və mükəmməlliyi ilə seçilən bu xalq nümunələri nəsildən-nəslə, ağızdan-ağıza ötürülərək qorunmuş, çoxəsrlik yaradıcılıq təcrübəsinin məhsulu kimi günümüzə qədər gəlib çatmışdır.

Azərbaycan şifahi musiqi mədəniyyəti iki əsas formada təmsil olunmuşdur: mahnı və rəqsləri özündə ehtiva edən musiqi folkloru və şifahi ənənəli peşəkar musiqiyə aid olan muğam sənəti ilə musiqili-poetik aşıq yaradıcılığı. Bu təsnifatın əsas əlaməti mahnı və rəqslərin məhz həmin janrların yaradıcısı olan geniş xalq kütləri arasında şifahi formada mövcudluğudur.

XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan yeni tarixi inkişaf dövrünə qədəm qoyur. Bu dövrü ictimai-iqtisadi tərəqqi və cəmiyyətin bütün sahələrində böyük irəliləyiş mərhələsi kimi səciyyələndirmək olar. Bu dövrdə Bakı neft şəhəri kimi dünyanın diqqətini özünə cəlb edirdi. Rusiyadan, Qafqaz regionundan, həmçinin yaxın xarici ölkələrdən Bakıya fəhlə axını gəlirdi. Bakı sənaye mərkəzi kimi bir çox sahibkarların və sənayeçilərin diqqətini cəlb edirdi.

Eyni zamanda mədəni həyatda da canlanma hiss edilirdi. Ümumiyyətlə, 1920-ci il Azərbaycan xalqının həyatında milli oyanış və mədəni dirçəliş dövrü kimi səciyyələndirilir. XX əsrin ilk onilliklərində Bakıda teatr sənəti və musiqi mədəniyyəti inkişaf edərək, bütün dolğunluğu ilə xalqın mənəvi aləminə daxil olurdu.

XIX əsrin sonunda Çar Rusiyasının tərkibində quberniya şəhəri olan Bakı Azərbaycanın teatr və musiqi mərkəzinə çevrilirdi. Bu dövrdə Bakıya bir çox xarici ölkələrdən qastrol səfərlərinə tanınmış musiqiçilər gəlir, burada tez-tez simfonik və xor musiqisindən ibarət konsertlər verilirdi.

XX əsrin əvvəllərində Bakıda hətta S.Raxmaninov, S.Prokofyev, L.Auer, İ.Qofman, V.Qorovits, V.Landovska, F.Şalyapin, L.Sobinov kimi musiqiçilər çıxış etmişlər. Onu da qeyd etmək lazımdır ki, Bakının dinləyici auditoriyası yüksək mədəni səviyyəsi ilə seçilirdi. Bakıya gələn məşhur müğənnilərin ifasında bir çox klassik opera əsərləri - M.Darqomujskinin “Su pərisi”, M.Qlinkanın “Çarın həyatı naminə”, A.Rubinşteynin “İblis”, J.Bizenin “Karmen”, Ş. Qunonun “Faust”, C.Rossininin “Sevilya bərbəri”, C.Verdinin “Trubadur”, “Aida”, “Riqoletto” və b. operalar səhnədə səsləndirilirdi. Bununla belə, o dövrdə Bakıda musiqili teatr binasının olmaması səbəbindən qastrol səfərinə gələnlər xalq yaradıcılığı evlərində, Nikitin qardaşlarının sirk binasında, H. Z. Tağıyev teatrında çıxış edirdilər. Yalnız 1911-ci ildə Mayılov qardaşları tərəfindən opera teatrının binası

tikildikdən sonra opera öz daimi məkanını tapmışdı. Opera musiqisi ilə yanaşı, Bakının musiqi həyatı simfonik konsertlərlə də canlanırdı. Bu konsertlərdə rus və Qərbi Avropa klassiklərinin əsərləri səsləndirilirdi. Konsert səhnələrində qastrol səfərlərinə gəlmiş orkestrlərə M.Çernyaxovski, A.V.Pavlov-Ardelin, A.V.Pozovski və başqaları dirijorluq edirdilər [18]. Ümumiyyətlə, XIX əsri maarif, mədəniyyət, elm və tərəqqi yolunda mübarizə əsri kimi də səciyyələndirmək olar.

Bakıda mahiyyət etibarilə yeni olan, mütərəqqi və bəşəri dəyərlərə söykənən bir sıra xeyriyyə cəmiyyətləri, həmyerlilər birlikləri, eləcə də digər mədəni-tərbiyəvi maarifçilik ocaqları yaranırdı. Artıq XX əsrin əvvəllərində otuzdan artıq xeyriyyə cəmiyyəti fəaliyyət göstərirdi: "Prosvite", "Ukrayna cəmiyyəti", "Gürcü cəmiyyəti", "Roma katolik cəmiyyəti", "Nəşri-maarif", "Nida", "Bakı müsəlman qadın xeyriyyə cəmiyyəti", "Səfa" cəmiyyətləri mədəni-maarif sahəsində fəaliyyət göstərirdi [18]. Bunlardan 1906-cı ildə yaradılmış "Nəşri-maarif" adlı xeyriyyə cəmiyyətini xüsusilə qeyd etmək lazımdır. Cəmiyyətin başlıca məqsədi Bakı şəhəri və quberniyasında müsəlmanlar arasında maarifi, xüsusilə ibtidai təhsili Azərbaycan və rus dillərində yaymaq, həmçinin hər növ maarifçilik işinə dəstək vermək idi. Bu cəmiyyətin sonralar rəhbəri Hacı Zeynalabidin Tağıyev olmuşdur.

Bakı şəhərində təşkil olunmuş və xalqın tərəqqisi naminə fəaliyyət göstərmiş maarifpərvər xeyriyyə cəmiyyətlərindən biri də "Nicat" cəmiyyəti idi. Cəmiyyət maarifin yayılmasına, imkansız, lakin istedadlı müsəlman uşaqlarının ibtidai, orta və ali təhsil almalarına yardım etmək, ana dili və ədəbiyyatın, həmçinin teatr sənətinin inkişafına xidmət göstərmək məqsədi ilə yaradılmışdı. Cəmiyyətin təşəbbüskarları bir qrup şəhər ziyalısı və xeyirxah sərvət sahibləri idi.

Əsrin əvvəlində, 1906-cı ildə Cəlil Məmmədquluzadənin nəşr etdiyi "Molla Nəsrəddin" jurnalı geriliyin və nadanlığın tənqidi, maarif və mədəniyyətin tərəqqisi, qadın azadlığı uğrunda mübarizədə mühüm əhəmiyyət kəsb edirdi. Jurnalın səhifələrində Üzeyir Hacıbəylinin felyetonları, bir çox dramaturq və şairlərin şeirləri çap olunurdu.

XX əsrin əvvəllərində artıq Azərbaycanda milli mədəniyyətin, xalqın mənəvi zənginliyinin inkişafında əsaslı rol oynayan dram teatrı mövcud idi. Bu teatrın səhnəyə qoyduğu bir çox tamaşalarda musiqi nömrələri yalnız antraktlarda səslənirdi. Tamaşalara Cabbar Qaryağdı oğlu, Şirin Axundov, Məşədi Məmməd Fərzəliyev kimi xanəndələr, instrumental ifaçılar, xanəndə-aşıqlar dəvət olunurdular.

Azərbaycanda milli musiqinin zənginləşməsində əsas rol oynayan səbəblərdən biri də hələ XIX əsrin ortalarından etibarən təşkil olunmuş musiqi məktəbləri və ədəbi-musiqi məclisləri idi. Belə ki, XIX əsrin sonunda Şuşada, sonra isə Şamaxı və Bakıda xüsusi musiqi məktəbləri açılmışdı. Ən məşhur musiqi məktəbi və onun yaradıcısı Xarrat Qulu Məhəmməd oğlu olan Şuşa məktəbi idi. Burada 70-ə qədər sazəndə fəaliyyət göstərirdi [17, s. 17].

Xarrat Qulunun musiqi məktəbi dinə xidmət məqsədi güdsə də, Azərbaycanda vokal və çalğı musiqisinin inkişafında mühüm rol oynamış, bir sıra ustad sənətkarların yetişməsinə səbəb olmuşdur. Şuşanın ən görkəmli xanəndələri Hacı Hüsü, Məşədi İsi, Dəli İsmayıl, Şahnaz Abbas, Əbdülbaqi, Keştazlı Həşim, Keçəçi oğlu Məhəmməd, Cabbar Qaryağdı oğlu və Sadıqcan həmin məktəbin yetirmələri idi. Tanınmış musiqi bilicisi Xarrat Qulunun ölümündən sonra Kor Xəlifə Şuşada musiqi məktəbi açmışdı. Məktəb Kor Xəlifənin ölümündən sonra bağlanmışdır.

Muğam ifaçılığının yayılmasında və onun professional şəkil almasında XIX əsrin 20-ci illərindən XX əsrin əvvəllərinə qədər Azərbaycan şəhərlərində yaranmış ədəbi və musiqi məclisləri böyük rol oynamışdır. Onlardan ən məşhurları Şuşada "Məclisi-Fəramuşan", "Məclisi-Üns", Musiqiçilər Cəmiyyəti, "Nəvvabın məclisi", Şamaxıda "Beytüs-səfa" və Mahmud ağanın musiqi məclisi, Bakıda sonralar musiqi məktəbinə çevrilmiş "Məşədi Mənsurovun salonu", "Məcməüş-şüəra", Gəncədə

"Divani-hikmət", Ordubadda "Əncümənüş-şüəra", Lənkəranda "Fövcül-füsəha" idi [17, s. 21, 23]. Bu məclislərdə şairlər, ədiblər, musiqiçilər, klassik poeziyanın və musiqinin sərrafları toplaşırdılar. Onlar muğamları diqqətlə dinləyir, musiqinin və şeirin incə ifası ətrafında müzakirələr aparır, Azərbaycan mədəniyyəti və incəsənətinə dair maraqlı söhbətlər edirdilər.

XX əsrin əvvəllərində mövcud olan böhranlı vəziyyətə baxmayaraq, bu dövr tərəqqi yolunda, milli incəsənət uğrunda yüksələn mübarizə mərhələsi kimi xarakterizə oluna bilər. Belə ki, 1908-ci il yanvarın 12-də (25-də) Bakıda Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının premyerası professional bəstəkarlıq yaradıcılığının inkişafının əsasını qoydu. Əsas məqsəd Azərbaycan musiqisini ümumavropa incəsənəti yoluna çıxarmaq, onu dünya mədəniyyətinə qovuşdurmaq idi.

Bu işdə 1920-30-cu illərdə Bakıda yaranmış çoxsaylı konsert təşkilatları, musiqi özfəaliyyət kollektivləri, musiqi dərnəkləri, teatr və klublar mühüm rol oynamışdır. Bu dövrdə yaranmış "Fəhlə klubu", Ceyran Bayramovanın rəhbərliyi ilə "Azərbaycan qadın klubu", "Dənizçilər klubu" və "N. Polkunun qızıl əsgər klubu" bu qəbildəndir [11]. Bu klublarda tez-tez musiqi studiyaları, xalq mahnı və rəqs kollektivləri təşkil olunurdu. Keçirilən konsertlərdə XIX əsrin sonundan Bakıda çalışan D.Slavinski və M.Çernyaxovski kimi dirijorlar iştirak edirdilər. Konsert proqramları peşəkar və xalq musiqi nümunələrindən ibarət idi.

Dünya incəsənətinin görkəmli sənətkarlarının yubileyləri də təntənə ilə qeyd olunurdu. Məsələn, Lüdviq van Bethovenin 150 illiyinə həsr olunmuş silsilə konsertlər bu qəbildən idi. Məhz həmin illərdə folklorun toplanması və tədqiqi sahəsində sistemli iş aparılmağa başlanmışdı və bu məqsədlə ilk elmi-musiqi ekspedisiyaları təşkil olunmuşdu. Bu fəaliyyət 1930-cu illərədək davam etmişdir. 1927-ci ildə Üzeyir Hacıbəyli və Müslüm Maqomayevin "Azərbaycan türk xalq mahnıları" məcmuəsinin nəşri Azərbaycan incəsənətinin gələcək inkişafına böyük təsir göstərmişdir.

1920-ci illərdən etibarən Azərbaycanda musiqi təhsili sahəsində peşəkar və təcrübəli sənət adamları – M.Çernyaxovski, D.Slavinski, S.Bretanitski fəaliyyət göstərirdilər. Bakı Konservatoriyasına 1923-1924-cü tədris ilindən M.Pressman rəhbərlik edirdi. Tədricən bu təhsil ocağına təcrübəli ziyalılar cəlb olunurdu. 1926-cı ildən konservatoriyada V.Smenev, M.Moribel, M.Kolotva, E.Qorskaya, Q.Madatova, L.Rostropoviç, L.Yablonko, Q.Şaroyev, İ.Speranski və V.Dobraxotova kimi mütəxəssislər çalışırdılar. Konservatoriyanın prorektoru vəzifəsini isə Üzeyir Hacıbəyli icra edirdi.

Görülən işlərin nəticəsi olaraq qeyd etmək olar ki, Azərbaycanda teatr şəbəkələri 1920-ci illərin sonlarından etibarən daha da genişlənmiş və musiqili teatr sahəsində əsaslı dəyişikliklər baş vermişdir. Opera truppası dram truppasından ayrılaraq 1925-ci ildə Azərbaycan tamaşalarında iştirak edən operanın rus bölməsi ilə birləşdirilmişdir. Xüsusilə italyan vokal məktəbinin ifaçılıq xüsusiyyətlərini improvizasiya elementləri ilə ustalıqla uyğunlaşdıran Bülbülün sənəti diqqətəlayiq idi. Azərbaycan operalarında bir çox təsirli obrazların ifaçısı olan Bülbül, həmin dövrdə yaradılmış bütün Azərbaycan opera qəhrəmanlarının - "Şahsənəm"də Aşıq Qərib (1934), "Nərgiz"də Əliyar (1935), "Xosrov və Şirin"də Fərhad (1942), "Vətən"də Aslan (1945) partiyalarının ilk ifaçısı olmuş, eyni zamanda Koroğlu partiyasının misilsiz ifaçısı kimi vokal səhnə sənətinin zirvəsinə yüksəlmişdir [11].

Opera səhnəsində ilk azərbaycanlı aktrisa olan Şövkət Məmmədova isə bir çox xarici və rus klassiklərinin operalarında əsas qəhrəmanların partiyalarını yaratmışdır.

1930-cu illərin sonunda musiqi təhsil sistemi daha da təkmilləşdirilmiş, Azərbaycan Konservatoriyasının strukturu yenilənmiş, nəzəriyyə, bəstəkarlıq, fortepiano, orkestr və vokal fakültələri yaradılmışdı. Müəllim heyəti sırasında Moskva və Leninqrad şəhərlərindən dəvət olunmuş yüksək ixtisaslı mütəxəssislərlə yanaşı, artıq 1930-cu illərdən etibarən Azərbaycan Konservatoriyasının məzunları da fəaliyyətə başlamışdılar.

1938-ci ildə Moskvada keçirilən İncəsənət ongünlüyü Azərbaycan musiqi sənətinin keçdiyi inkişaf yolunun bir növ yekunu kimi milli incəsənətin nailiyyətlərini böyük uğurla nümayiş etdirmişdi. Ongünlük çərçivəsində "Şahsənəm", "Nərgiz", "Koroğlu" operaları Moskva tamaşaçılarına təqdim olunmuşdu.

1941-ci ildə başlayan Alman-Sovet müharibəsi 1940-cı illərin birinci yarısında bütün sovet mədəniyyətinin ideya yönümünü dəyişdirdi. Müharibə xalqı və ideoloji cəbhəni səfərbərliyə çağırdı. Xalqımızın qəhrəmanlıq mübarizəsi musiqi yaradıcılığının bütün janrlarında öz əksini tapdı. Bu dövrdə yaranmış mahnılar, simfoniyalar və kantatalar dövrün tələblərinə cavab verirdi. 1945-ci ildə M.F.Axundov adına Azərbaycan Opera və Balet Teatrında Qara Qarayev və Cövdət Hacıyevin birgə yaratdıqları "Vətən" operası tamaşaya qoyuldu və qısa müddətdə Dövlət mükafatına layiq görüldü. Bu dövrdə instrumental janrın da yeni nümunələri meydana gəldi. Xalq rəqsləri əsasında, əvvəlcə xalq çalğı alətləri orkestri üçün yazılmış Üzeyir Hacıbəylinin "Cəngi" və Səid Rüstəmovun "Qəhrəmani" pyesləri qəhrəmanlıq mövzusunu əks etdirən mühüm əsərlərdən olmuşdur.

1950-60-cı illər Azərbaycan musiqi mədəniyyətinin səmərəli inkişaf dövrü olmuşdur. 1960-70-ci illərdə bəstəkarların yaradıcılıq görüşləri, yaradıcılıq yolları, üslubları, eləcə də vahid ideya-bədii prinsiplərinin təcəssüm formaları ilə fərqlənirdi. Eyni zamanda bu onilliklərin musiqi sənəti yüksək bədii ustalığı, klassik ənənələri və həqiqi novatorluğu ilə seçilirdi. 1972-ci ildə Praqada və 1974-cü ildə Türkiyədə Qara Qarayevin keçirilən müəllif konsertləri respublikanın musiqi həyatında böyük hadisə olmuşdur. Bu illərdə Azərbaycanda və dünyanın bir çox ölkələrində rus və Qərbi Avropa klassiklərinin, eləcə də Azərbaycan bəstəkarlarının əsərlərini ifa edən Niyazinin konsertləri böyük müvəffəqiyyətlə keçmişdir [11]. Niyazinin dirijor fəaliyyəti ölkəmizdə və xarici mətbuatda tez-tez işıqlandırılırdı.

XX əsrin sonunda Azərbaycan musiqi mədəniyyəti yeni dövrə - musiqi sənətinin mühüm janrlarının sürətli inkişafı mərhələsinə qədəm qoydu. 1990-cı illərdə Fikrət Əmirovun "Nizami", Aqşin Əlizadənin "Babək" və "Qafqaza səyahət", Tofiq Bakıxanovun "Xeyir və Şər", "Şərqin poeması", Firəngiz Əlizadənin "Boş beşik", Oqtay Zülfüqarovun "Əlibaba və qırx quldur" baletləri bu janrda mühüm uğurlar kimi diqqəti cəlb edirdi.

Bu gün Azərbaycan incəsənəti qloballaşan dünya mədəniyyətinin ayrılmaz bir hissəsidir. Üzeyir Hacıbəylinin ənənələrini davam etdirən Azərbaycan bəstəkarları müasir dünya musiqisinin inkişaf prosesində fəal iştirak edərək milli musiqimizi daha da yüksəltməyə çalışırlar.

Yaradıcılığı ilə milli musiqi tarixində mühüm rol oynamış dahi bəstəkar Üzeyir Hacıbəyli Azərbaycan professional musiqisinin banisidir. Azərbaycan professional musiqi yaradıcılığının təşəkkülü və inkişafı, bir çox janrların meydana gəlməsi və bütün Yaxın Şərqdə ilk musiqili teatrın yaranması onun adı ilə bağlıdır. Üzeyir Hacıbəyli öz əsərləri ilə milli incəsənətimizdə humanizm və yüksək ideyalılıq mövqeyini təsdiqləyən yeni səhifələr açmışdır. Rus musiqisində Mixail Qlinka kimi, Üzeyir Hacıbəyli də öz yaradıcılığında cəsarətli novator mövqedən çıxış edərək peşəkar milli musiqi mədəniyyətinin inkişafında dönüş yaratmışdır. Dünya klassiklərinin ənənələrini mənimsəyərək, bu ənənələri milli xalq incəsənətinin xüsusiyyətləri ilə birləşdirən Üzeyir Hacıbəyli Azərbaycan incəsənətində yeni, peşəkar musiqi üslubunun təməlini qoymuşdur.

Azərbaycan xalqının musiqi-poetik yaradıcılığının ən qədim janrlarından olan mahnılarda onun pak, yüksək mənəviyyatı, daxili aləmi, arzuları və ümidləri parlaq şəkildə əks olunmuşdur. Azərbaycan xalq mahnıları mövzu və məzmunun müxtəlifliyinə, musiqi və poetik dilin aydınlığına, rəngarəngliyinə görə bir neçə janr qrupuna ayrılır. Bunlara əmək mahnıları, mərasim mahnıları, məişət mahnıları (o cümlədən lirik mahnılar) və tarixi mahnılar daxildir.

Azərbaycan xalqının mahnı yaradıcılığının qədim növlərindən biri də mərasim mahnılarıdır. Xalqın

bayram şənlikləri, toy və matəm mərasimləri ənənəvi olaraq bu mahnılarla müşayiət olunmuş və onların bir çoxu bu günə qədər xalq arasında yaşamaqdadır. Bu mahnıların mətnini isə xalq ədəbiyyatının geniş yayılmış forması olan bayatılar təşkil etmişdir.

Məişət mahnıları da məzmununa, formasına və ifadə etdiyi hisslərə görə müxtəlifdir. Onlar uşaq mahnılarına, yumoristik və satirik mahnılara, eləcə də lirik mahnılara bölünür. Uşaq mahnıları, xüsusilə anaların uşaqlara oxuduqları beşik mahnıları, tarixi baxımdan məişət mahnılarının ən qədim növlərindən hesab olunur.

Lirik mahnılar isə bu janrın ən zəngin və gözəl nümunələrini təşkil edir. Saf məhəbbət, sevgilinin gözəlliyinin vəsfi, ayrılıq, intizar, qəm və kədər kimi hisslər lirik mahnıların əsas məzmununu təşkil edir. Lirik mahnı yaradıcılığı xalqın milli bədii özünüifadə vasitələrinin ən güclülərindən birinə çevrilmişdir. Bu mahnıların bir qismi nikbin və şad ruhda, digər qismi isə kədərli və qəmli ruhda olur.

Azərbaycan xalq mahnı yaradıcılığında epik-tarixi və qəhrəmanlıq mahnıları da mühüm yer tutur. Qədim dövrlərdən formalaşmağa başlayan bu mahnılar ölkə tarixində baş vermiş hadisələrə və ya xalqın həyatında mühüm rol oynamış qəhrəmanlara həsr olunur. Məsələn, Koroğlu haqqında, onun sevgilisi Nigar, dəliləri və vəfalı Qırat haqqında yaranmış mahnılar bu qəbildəndir.

Xalq arasında geniş yayılmış sevimli mahnı janrı ilə yanaşı, Azərbaycan xalqının milli folklor musiqisinin mühüm hissəsini rəqs musiqisi təşkil edir. Xalq rəqsləri Azərbaycan milli instrumental musiqisinin əsasını təşkil edir. Bu rəqslər xalq tərəfindən yaradılmış, əsrlər boyu şifahi şəkildə nəsildən-nəslə ötürülmüşdür. Xalq mahnılarında olduğu kimi, rəqslərdə də xalqın hissləri, duyğuları, xasiyyəti və temperamentini aydın şəkildə görmək mümkündür.

Xalq rəqsləri arasında qadın rəqsləri öz lirikliyi, zərifliyi və incəliyi ilə seçilir. Məsələn, "Vağzalı", "Uzundərə" kimi rəqslər bu qəbildəndir. Elə rəqslər də vardır ki, yalnız qadınlar tərəfindən ifa olunur, məsələn, "Nəlbəki", "Ceyranı". Kişi rəqsləri isə daha çox coşğun hisslər, cəld ritm, güc və temperament ilə xarakterizə olunur. "Qaytağı", "Cəngi", "Qazağı", "Xançobanı" kimi rəqslər buna misaldır.

Bundan başqa, xalq arasında kollektiv rəqslər də geniş yayılmışdır. Bu rəqslər çox vaxt əmək proseslərini və məişət mərasimlərini müşayiət edir. Məsələn, "Halay" rəqsləri bu qəbildəndir. "Vağzalı" rəqsi isə adətən toy mərasimlərinin ayrılmaz hissəsidir. Qadın və kişilərin birlikdə ifa etdiyi rəqslərə "Yordu-yordu" nümunə göstərilə bilər. Kollektiv rəqslər arasında ən geniş yayılanı isə "Yallı" rəqsidir ki, onun kökləri çox qədim dövrlərə gedib çıxır.

Araşdırmalar göstərir ki, 1920-ci ildən - Sovet hakimiyyətinin ilk illərindən başlayaraq Azərbaycanın musiqi incəsənəti müəyyən çətinliklərə baxmayaraq inkişaf etmişdir. Bu mənada Azərbaycan musiqi sənətinin banisi Üzeyir Hacıbəyli musiqi mədəniyyətindən bəhs edərək yazırdı: "Azərbaycan türklərinin istedadı musiqi baxımından nə osmanlı türklərindən, nə də qonşuları iranlılardan geri qalmır. Qafqaz millətləri içərisində isə musiqiyə ən istedadlı olanlar Azərbaycan türkləridir desək, zərrəcə mübaliğə olmaz. Bunların bir çoxu yalnız öz içlərində deyil, ümumqafqaz miqyasında tanınmış və şöhrət qazanmış musiqiçilərdir. Tarzən Sadıqcanların, xanəndə Əbdülbağıların, aşıq Nəcəfquluların adları Qafqazın hər yerində məşhurdur" [13, s. 177].

Üzeyir Hacıbəyli ilə yanaşı, milli musiqi mədəniyyətimizin tarixinə yaxından bələd olan Nəriman Nərimanov da Azərbaycan musiqi sənətinin inkişafına böyük qayğı göstərmiş, Üzeyir Hacıbəyli və Müslüm Maqomayev kimi sənətkarlara dəstək olmuşdur. Musiqi mədəniyyətini yüksək səviyyəyə qaldırmaq onun əsas məqsədlərindən biri idi.

Lakin həmin dövrdə milli opera sənətinin inkişaf yolları ilə bağlı ciddi müzakirələr gedirdi. Bəzi mövqelərdə inqilaba qədərki muğam operaları və bir sıra mədəniyyət xadimləri primitiv hesab edilir,

Avropa tipli operalar yaradılana qədər opera teatrının bağlanması təklif olunurdu. Digər tərəfdən isə yalnız muğam əsasında yazılmış operalar milli və dinləyicilərin estetik zövqünə uyğun hesab edilirdi. Bu müzakirələr Azərbaycan musiqi mədəniyyətinin gələcək inkişaf istiqamətlərinin formalaşmasında mühüm rol oynamışdır.

XX əsrin 20-ci illərində milli musiqi alətlərini Avropa alətləri ilə əvəz etməyi təklif edən "islahatçılar" da meydana çıxmışdı. Xalq Maarif Komissarlığının 1929-cu ilin fevralında qəbul etdiyi qərarda deyilirdi: "Konservatoriyanın bütün pillələrində peşəkar kurslarda məcburi təlim olan tar çalmağı öyrənmək tədris planından çıxarılsın, Şərq orkestri ləğv olunsun, tar üzrə təhsil alanlar Avropa alətləri siniflərinə paylanılsınlar" [4, v. 13].

Xalq Maarif komissarı Məmməd Quliyev də etiraf edərək demişdi: "Musiqi məktəblərinə gəldikdə isə siyasətimiz bu musiqi təhsilini avropalaşdırmağa yönəltməkdir". Müəyyən qüvvələr tərəfindən təkcə xalq çalğı alətlərinə deyil, həmçinin simfonik orkestr üçün yazılmış Şərq musiqi əsərlərinə qarşı da etinasız münasibət göstərilirdi.

Bütün bunlara qarşı Üzeyir Hacıbəyli, Müslüm Maqomayev və onların həmfikirləri çıxış edirdilər. Azərbaycan incəsənətinin qabaqcıl nümayəndələri canlı mahnı-musiqi folklor ənənələrini inkar edən, hətta tar və digər milli musiqi alətlərindən istifadəni qadağan etməyi təklif edən nihilist meyillərə qarşı mübarizə apararaq Azərbaycan musiqisinin inkişaf yollarını düzgün istiqamətləndirə bilmişlər.

Milli musiqi mədəniyyətinin inkişafı üçün mühüm tədbirlər görən Nəriman Nərimanovun imzası ilə 1920-ci il sentyabrın 16-da verilmiş dekretə əsasən Azərbaycan ərazisində olan bütün musiqi və not mağazaları malları ilə birlikdə milliləşdirilmişdir [7, v. 20].

Həmin ilin 14 oktyabrında verilmiş digər dekretə görə isə musiqi alətləri – o cümlədən royal, pianino, simli və nəfəs alətləri, qrammofonlar, vallər və s. kimə məxsus olmasından asılı olmayaraq dövlət mülkiyyəti elan edilərək Xalq Maarif Komissarlığının ixtiyarına verilmişdi [16, s. 161].

Musiqi təhsilini zəhmətkeş kütlə içərisində yaymaq məqsədilə Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 10 iyul və 14 oktyabr tarixli dekretləri ilə bütün musiqi alətləri dövlət mülkiyyəti elan edilmişdi [5, v. 50]. Konservatoriyanın Şərq şöbəsi Üzeyir Hacıbəylinin xüsusi qayğısı sayəsində geniş zəhmətkeş kütlənin musiqi mədəniyyətinə yiyələnməsində misilsiz rol oynamışdı. Musiqi təhsilini təkmilləşdirmək məqsədilə 1921-ci il avqustun 26-da Azərbaycan SSR XKS-nin dekreti ilə müsəlman Şərqində ilk Musiqi Akademiyası təsis olundu [1, s. 242]. Azərbaycanlı balalarını konservatoriyaya qəbul etmək üçün 1922-ci ildə Üzeyir Hacıbəyli ilk peşəkar Azərbaycan musiqi məktəbini yaratdı. Sonradan texnikuma çevrilən bu məktəb 1926-cı ildə konservatoriyaya birləşdirilərək milli musiqiçi kadrların tərbiyəsi probleminin həllini sürətləndirdi [2, s. 77].

Bu dövrdə konservatoriyada Azərbaycan xalq mahnı və nəğmələrini öyrənən və toplayan komitə fəaliyyət göstərirdi [3, v. 83]. Bu sahənin inkişafında 1926-cı ilin mayında təşkil edilən Dövlət Elm Şurasının (DEŞ) elmi-bədii bölməsinin böyük rolu olmuşdu [6, v. 33]. Onun əsas vəzifələrindən biri xalq mahnı və havalarını toplamaq, yazmaq və xalq musiqisini öyrənmək idi. Bundan başqa Müslüm Maqomayev də Azərbaycanın rayonlarında, xüsusilə Şuşada musiqi məktəblərinin açılmasını ən yaxın vəzifələrdən biri hesab edirdi. İncəsənətin kütləviliyini artırmaq üçün fəhlə klubları şəbəkəsinin genişləndirilməsi, özfəaliyyət dərnəklərinin artırılması üçün tədbirlər görülməsini "ən mühüm qayğılardan biri" adlandırırdı. Azərbaycan xalq çalğı orkestrini professional səviyyəyə çatdırmaq üçün əsaslı iş aparmağı məsləhət bilirdi [12, s. 42-43]. Bunlardan sonra 1927-ci ildə Bakıda "Azərbaycan türk el nəğmələri" kitabı Müslüm Maqomayevin redaktorluğu ilə çap olundu. Kitabda Üzeyir və Zülfüqar Hacıbəylilərlə yanaşı, Müslüm Maqomayevin də toplayıb nota aldığı mahnılar vardı. Mahnıların əksər hissəsi Cabbar Qaryağdıoğlunun oxumasından nota köçürülmüşdü.

Musiqinin inkişafında müasir Azərbaycan vokal sənətinin banisi Bülbülün təşəbbüsü ilə 1932-ci ildə yaradılmış Elmi-Tədqiqat Musiqi kabineti də mühüm rol oynamışdı [8, v. 46]. O, Azərbaycanda xalq musiqisinin bütün janrları üzrə material toplayan mərkəz idi. Görülən işlərə görə Azərbaycan musiqi mədəniyyətinin inkişafında 1932-1940-cı illəri yeni dövr hesab etmək olar. Bu illərdə müxtəlif janrların inkişafı üçün Azərbaycan musiqisi bütün imkanları əldə etmişdi.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev çıxışlarında dəfələrlə deyirdi: "Mahnı, musiqi qədər, incəsənət və mədəniyyət qədər insanları bir-birinə heç nə bağlamır. İncəsənətin, mədəniyyətin, xüsusən də mahnının, musiqinin oynadığı rolu heç bir vasitə oynaya bilməz" [9]. Ulu Öndər istər keçmiş sovet dönəmində, istərsə də müstəqillik illərində Azərbaycana rəhbərlik edərkən xüsusi diqqət və qayğı göstərdiyi sahələrdən biri milli mədəniyyətimiz, o cümlədən də musiqimiz olmuşdur. Ulu Öndər milli mədəniyyətimizə belə həssas yanaşmasının ifadəsi olaraq 1995-ci ildə - dahi bəstəkar Üzeyir Hacıbəylinin anadan olmasının 110 illik yubileyi ərəfəsində hər il sentyabrın 18-nin ölkəmizdə "Milli Musiqi Günü" kimi qeyd olunması ilə bağlı Fərman imzalamışdı [9]. Beləliklə, hər il "Milli Musiqi Günü" ilə bağlı paytaxtda və regionlarda genişmiqyaslı tədbirlər keçirilir ki, bu da mədəniyyətimizin təbliği, gənc nəslin milli ruhda yetişməsi baxımından çox əhəmiyyətlidir. Azərbaycan Milli Musiqi Günü hər il yüksək səviyyədə qeyd olunur. Ulu Öndərin Üzeyir Hacıbəylinin doğum gününə həsr olunan Fərmanı təsadüfən verilməmişdir. Məlum olduğu kimi, Azərbaycan xalqı tarix boyu zəngin mədəni irs yaradıb. Sonrakı mərhələlərdə respublikamızda müxtəlif nəsillərin nümayəndələrinin xalqımızın zəngin mədəni irsinə əsaslanaraq yaratdıqları əsərlər, o cümlədən də musiqi nümunələri bu gün bəşəriyyətin inciləri sırasında yer alır.

Azərbaycan mədəniyyəti tarixində silinməz iz qoymuş simalardan biri də Üzeyir Hacıbəylidir. Bu gün Azərbaycanın peşəkar musiqisi məhz onun qoyduğu möhkəm təməl üzərində inkişaf edir. Azərbaycanın dövlət himninin musiqisi Üzeyir Hacıbəyliyə məxsusdur. Novator sənətkar Şərqdə ilk operanın müəllifidir. Üzeyir Hacıbəyli milli musiqimizdə dönüş edib, onu peşəkar zəmində inkişafa istiqamətləndirib, əsərlərində çox uğurlu şəkildə Şərq və Qərb musiqisinin möhtəşəm sintezini yaradıb.

Sentyabrın 18-nin dahi bəstəkar Üzeyir Hacıbəylinin doğum gününün "Milli Musiqi Günü" kimi müəyyənləşdirilməsi Ulu Öndər Heydər Əliyevin milli mədəniyyətimizə və mədəniyyət xadimlərinə göstərdiyi qayğının və hörmətin bariz nümunəsi olmuşdur. Respublikamızda Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu milli mədəniyyətimizə göstərilən qayğı siyasəti son 23 ildə eyni ardıcıllıqla davam etdirilir. Dövlət başçısı İlham Əliyev vaxtaşırı mədəniyyət xadimləri ilə görüşlər keçirir və milli mədəniyyətimizin perspektiv inkişafı üçün onlardan təkliflər alır.

Beləliklə, deyə bilərik ki, müstəqil Azərbaycanda milli mədəniyyətimiz konseptual əsaslarla inkişaf etdirilir. Qarşıya qoyulan əsas məqsədlərdən biri ondan ibarətdir ki, milli mədəniyyətimiz tarixilik ənənələrinə sadiq qalsın, eyni zamanda müasir çağırışlara cavab versin və gənclərimizdə yüksək vətənpərvərlik hissləri aşılasın. Bu gün müxtəlif janrlarda yüksək peşəkarlıqla yaradılan mədəniyyət nümunələrimizin dünyanı fəth etməsi son dərəcə qürurverici haldır. Xalqımızın mədəni irsinin qorunmasının, dünya şöhrətli yeni mədəni irs nümunələrinin yaranmasının arxasında isə davamlı dövlət qayğısı dayanır. Son vaxtlarda respublikamızın əsas teatrları, muzeylər yüksək səviyyədə təmir edilib. İncəsənət Muzeyinin iki binası və Xalça Muzeyi tikilib, Müasir İncəsənət Muzeyi fəaliyyətə başlayıb. Hazırda ölkəmizin bütün bölgələrində Tarix-Diyarşünaslıq muzeyləri yaradılıb. Eyni zamanda respublikamızda "Milli Musiqi Günü" hər il yüksək səviyyədə qeyd olunur. Bütün bunlar mədəniyyət xadimləri, o cümlədən də musiqiçilər üçün yaradıcılıq imkanlarının genişlənməsi deməkdir və mədəniyyətimizə yüksək dövlət qayğısını əks etdirir.

Bu baxımdan qeyd etmək olar ki, Heydər Əliyev Fondu milli mədəniyyətimizin inkişafına və təbliğinə mühüm töhfələr vermişdir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban

Əliyevanın rəhbərlik etdiyi bu fond sanballı layihələr həyata keçirmişdir. Fondun dəstəyi ilə indiyədək ölkə üzrə çoxsaylı mədəniyyət obyektləri, tarixi abidələr, muzeylər yüksək səviyyədə təmir olunaraq istifadəyə verilmişdir. Eyni zamanda Fond milli mədəniyyətimizin xarici ölkələrdə təbliğində fəal iştirak edir. Bunun təsdiqi olaraq son illərdə Kanadada Azərbaycan mədəniyyəti günləri keçirilmiş, 58-ci Venesiya Biennalesində Azərbaycan pavilyonu yaradılmış, Pekində Azərbaycan-Çin dostluq konserti təşkil edilmiş, Moskvada İmadəddin Nəsiminin büstü ucaldılmış, Fransada "Azərbaycan parkı" və Xurşidbanu Natəvanın abidəsi açılmış, Konyak şəhərində Məhsəti Gəncəvinin heykəli ucaldılmış, Parisdə "Azərbaycan şəhərciyi" təşkil olunmuş və digər layihələr reallaşdırılmışdır [9].

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən musiqi tədbirlərinin statistikası kifayət qədər zəngindir. Fond davamlı olaraq festivallar keçirir. Qurumun dəstəyi ilə təşkil olunan Qəbələ Beynəlxalq Musiqi Festivalının şöhrəti ölkəmizin hüdudlarını aşmışdır. Fondun muğamlarımızın qorunması və təbliği istiqamətində fəaliyyəti böyük əhəmiyyət daşıyır. Heydər Əliyev Fondu həmçinin dahi bəstəkar Üzeyir Hacıbəylinin zəngin irsinin təbliğinə də öz töhfəsini verir. Fond artıq bir neçə ildir ki, Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalına təşkilatçılıq edir.

Qeyd edək ki, bəhs olunan festival İlham Əliyevin imzaladığı müvafiq sərəncama əsasən, 2009-cu ildən etibarən hər il keçirilir. İndiyədək dahi bəstəkarın xatirəsinə həsr olunan beynəlxalq festivallarda Azərbaycan, ABŞ, Rusiya, Çin, Türkiyə, İtaliya, Özbəkistan, Belarus, Bolqarıstan, Ukrayna və Gürcüstandan tanınmış musiqi kollektivləri çıxış etmişlər [9]. Onu da qeyd edək ki, Heydər Əliyev Fondunun rəhbəri, Birinci vitse-prezident Mehriban Əliyevanın böyük səyləri sayəsində Üzeyir Hacıbəylinin yubileyi bir neçə dəfə YUNESKO səviyyəsində qeyd edilmişdir. Elə 2020-ci il sentyabrın 18-də Mehriban xanım Əliyevanın rəsmi "İnstaqram" səhifəsində "Milli Musiqi Günü" ilə bağlı paylaşım etməsi də onun milli mədəniyyətimizə, o cümlədən dahi bəstəkar Üzeyir Hacıbəylinin ölməz irsinə böyük rəğbətinin ifadəsidir.

Ədəbiyyat

1. Abdullayev M. Azərbaycanda mədəniyyətimizin, milli musiqimizin inkişafına dövlət səviyyəsində yüksək qayğı göstərilir // Yeni Azərbaycan. – 2020. – 18 sentyabr.
2. Azərbaycan musiqisi [Elektron resurs]. – URL: https://azerbaijan.az/
3. Azərbaycan Respublikasının Dövlət Arxivi (ARDA). – f. 57, siy. 1, iş 343.
4. Azərbaycan Respublikasının Dövlət Arxivi (ARDA). – f. 57, siy. 1, iş 410.
5. Azərbaycan Respublikasının Dövlət Arxivi (ARDA). – f. 57, siy. 1, iş 1164.
6. Azərbaycan Respublikasının Dövlət Arxivi (ARDA). – f. 57, siy. 5, iş 1.
7. Azərbaycan Respublikasının Dövlət Arxivi (ARDA). – f. 57, siy. 7, iş 11.
8. Azərbaycan Respublikasının Dövlət Arxivi (ARDA). – f. 410, siy. 1, iş 12.
9. Azərbaycan Respublikasının Dövlət Arxivi (ARDA). – f. 2988, siy. 1, iş 2.
10. Azərbaycan tarixi. – 7 cilddə. – VI cild (aprel 1920 – iyun 1941). – Bakı: Elm, 2000. – 568 s.
11. Azərbaycançılıq və milli musiqi mədəniyyətimizin tarixi // Azad Azərbaycan. – 2013. – 16 aprel. – S. 5.
12. Hacıbəyov Ü. Ə. Seçilmiş əsərləri. – Bakı: Yazıçı, 1985. – 653 s.
13. Hüseynov R. B. Vaxtdan uca. – Bakı: İşıq, 1989. – 363 s.
14. Milli musiqimizi yaşadan dahi bəstəkar Üzeyir Hacıbəyov // İki Sahil. – 2020. – 22 sentyabr.
15. Ömərov V. Azərbaycançılıq və milli musiqi mədəniyyətimizin tarixi inkişaf mərhələləri: XIX əsr və XX əsrin əvvəlləri // Səs. – 2012. – 17 aprel.
16. Paşayev N. A. Nəriman Nərimanov və Azərbaycan mədəniyyəti. – Bakı: Azərnəşr, 1986. – 176 s.
17. Şuşinski F. Azərbaycan xalq musiqiçiləri. – Bakı, 1985. – 480 s.
18. Azərbaycan musiqi mədəniyyətinin inkişafı [Elektron resurs]. – URL: https://ldhk.edu.az/e-ldhk/

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

Kitab ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com
Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 07.04.2026
Çapa imzalanmışdır: 27.04.2026
Qarnitura: Alice, Times New Roman
Şərti çap vərəqi: 37,5
Formatı: 64x90 1/8
Tiraj: 300